# Qayğı uğura səsləyir



**Salyan rayon Qulu Əsgərov adına Uşaq İncəsənət Məktəbi qabaqcıl mədəni-maarif müəssisələrimizdəndir. Burada 490 nəfər şagird oxuyur, fortepiano, skripka, tar, kamança, qarmon, nağara, nəzəriyyə və təsviri sənət ixtisasları üzrə biliklərini zənginləşdirir. Onların təlim-tərbiyəsi ilə 78 nəfər müəllim məşğul olur.**

Kollektivə tanınmış mədəniyyət xadimi Paşa Nağıyev rəhbərlik edir. Məktəbin uğurları əsasən Onun adı ilə bağlıdır. Bu günlərdə əməkdaşımız məktəbin direktoru ilə görüşmüş, görülmüş işlərlə maraqlanmışdır. Söhbət zamanı Paşa müəllim demişdir:

- Məktəb 1961-ci ildə müsiqi məktəbi kimi fəaliyyətə başlamışdır. 30 il sonra - 1991-ci ildə məktəbə Qulu Əsgərovun adı verilmişdir. Elə o vaxtdan da incəsənət məktəbinə çevrilmişdir.

Arxada qalan illər ərzində məktəbin uğurları çox olmuşdur. Məzunlarımızın sorağı respublikanın müxtəlif mədəniyyət ocaqlarından gəlir. Hazırda kollektivdə çalışan müəllimlərin 70 faizi öz yetirmələrimizdir.

Məktəb müasir tələbata uyğun 45 sinif otağından ibarət binada yerləşir. Musiqi aləti və müvafiq dərs vəsaiti ilə təminatımız pis deyil. 27 ədəd fortepiano, 2 royal, 1 tar, 1 kamança, 5 qarmon və 2 nağara alətimiz var.

Rayon icra hakimiyyətinin köməkliyi ilə burada əsaslı təmir işləri aparılır. Artıq birinci mərtəbədə işlər başa çatdırılmışdır.

Məktəbimiz rayon və respublika səviyyəli müsabiqə və festivallarda yaxından iştirak edir. Yetirmələrimizdən Elnur Əmrahov, Gülnar Sadıqova, Orxan Şərəfov, Roman Salahov, Tural Məmmədzadə, Cəlil Cəlilov, İsmayıl Həsənov, Bəylər Qədirov, Rəşad Vəliyev, Balaş Zamanov, Həmidə Məlikova, Famil Zülfüqarov, Ceyhun Əzizov və başqaları məharətli çıxışları ilə öz həmkarlarından seçilmiş, müxtəlif mükafatlara layiq görülmüşlər.

Məktəbdə bir qayda olaraq tarixi əlamətdar günlər, bayramlar, yubiley gecələri çox yüksək səviyyədə təşkil olunur. Üzeyir Hacıbəyovun, Qulu Əsgərovun yubileyləri, ulu öndərimiz Heydər Əliyevin və görkəmli bəstəkar Süleyman Ələsgərovun xatirə gecələri və digər tədbirlər bu qəbildəndir.

Qazandığımız göstəricilər bizi yeni-yeni uğurlara səsləyir. Bu işdə müəllimlərimizin zəhmətini yüksək dəyərləndirirəm. Düşünürəm ki, kollektivimizin nailiyyətləri barədə hələ çox danışılacaq. Bununla bağlı jurnalımızın yürütdüyü fikir, verdiyi qiymət bizim üçün daha doğma, daha əzizdir...

● **A.QULİYEV**

